## Vergi işçisinin etik davranış Kodeksi

Fəsil 9. İctimaiyyətlə qarşılıqlı əlaqə

9.1. İşçilər nazirliyin işi və siyasəti haqqında kütləvi-informasiya vasitələrinə nazirlik tərəfindən müəyyən edilmiş qaydada məlumat verə bilərlər.

Fəsil 10. Məhkəmələrdə və sorğular zamanı ifadə vermə

10.1. İşçilər xidməti vəzifələri və yaxud sair məsələlər barəsində təhqiqat və istintaq orqanlarına və ya məhkəməyə ifadə vermək üçün dəvət edildikləri halda, bu barədə dərhal öz birbaşa rəislərinə məlumat verməlidirlər. Onlar da öz növbəsində daha yuxarı vəzifəli rəisləri məlumatlandırmalıdırlar.

10.2. Rəislər işçiləri tərəfindən xidməti fəaliyyətlə və xidməti vəzifəsi ilə bağlı ifadə vermək və ya sənəd təqdim etməyə dair icazə istənildikdə, işçiyə icazə verməzdən əvvəl özlərindən vəzifəcə yüksək vəzifəli şəxsdən məsləhət almalıdırlar.

Fəsil 11. Xidməti vəsiqədən və vizit kartından istifadə etmə

11.1. İşçi xidməti vəsiqədən və Vergilər Nazirliyi sistemində fəaliyyətini, vəzifəsini, xidməti telefon nömrələrini və digər xidməti məlumatlarını əks etdirən vizit kartından yalnız rəsmi məqsədlər üçün istifadə edə bilər.

11.2. İşçinin xidməti vəsiqəsindən birbaşa və ya dolayısı ilə hər hansı bir şəxsə təsir göstərmək, özünün və ailə üzvlərinin, habelə başqalarının mənfəət əldə edilməsi üçün istifadə oluna bilməz.

Fəsil 12. Vergi orqanı əməkdaşlarının nalayiq hərəkətləri barədə məlumatın verilməsi

12.1. İşçilər rəhbərliyə öz iş yoldaşları və ya tabelikdə olan işçilər barəsində bilərəkdən yalan və ya təhrif olunmuş məlumatlar (onların vəziyyətini yaxşılaşdıran və ya pisləşdirən) verməməli, məlumatı verməzdən əvvəl bütün imkanlarından istifadə edərək onun düzgün olub-olmamasını müəyyən etməlidirlər.

12.2. İşçi bilərəkdən yalan, təhrif olunmuş, yaxud öz şəxsi marağı üzündən digər işçinin vəziyyətini pisləşdirən və ya yaxşılaşdıran məlumat verilməsinə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.